| İlqar Xıdır oğlu Bəylərov |  |
| --- | --- |

Azərbaycan Memarlar İttifaqının katibi İlqar Xıdır oğlu Bəylərov 1961-ci ildə Laçın şəhərində anadan olmuşdur. 1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. 1983-1988-ci illərdə Bakı Baş Tikinti İdarəsində, sonra SSRİ Elmlər akademiyasında işləmiş, 1993-1998-ci illərdə ASİA PLUS Kiçik müəssisəsində direktor vəzifəsində çalışmışdır. Hal-hazırda "IBA GROUP" MMC memarlıq şirkətinin təsisçisi və baş direktorudur.

İ. Bəylərov bir sıra Beynəlxalq müsabiqələrin laureatıdır.

1988-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür, 2012-ci ildən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin katibidir.

2008-ci ildə «Ustad Memar» yüksək peşəkarlıq dərəcəsinə layiq görülmüdür.

2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2012-ci il tarixli Fərmanı ilə «Respublikanın Əməkdar memarı» fəxri adına layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2017-ci il tarixli Sərəncamına əsasən «Azərbaycan memarlığın inkişafında xidmətlərinə görə» «Şöhrət» ordeni ilə təltif edilmişdir.